# «TURKIY XALQLARNING MA'NAVIY INTEGRATSIYASI: TILI, ADABIYOTI, MADANIYATI» MAVZUSIDAGI II XALQARO ILMIY-NAZARIY KONFERENSIYA

TOSHKENT - 2025

O‘ZBEKISTON RESPUBLIKASI OLIY TA’LIM, FAN VA INNOVATSIYALAR VAZIRLIGI

ALISHER NAVOIY NOMIDAGI TOSHKENT DAVLAT O‘ZBEK TILI VA ADABIYOTI UNIVERSITETI

# «TURKIY XALQLARNING MA’NAVIY INTEGRATSIYASI: TILI, ADABIYOTI, MADANIYATI»

MAVZUSIDAGI II XALQARO ILMIY-NAZARIY KONFERENSIYA MATERIALLARI

TOSHKENT - 2025

Mazkur ilmiy maqolalar toʻplamida «Turkiy xalqlarning ma'naviy integratsiyasi: tili, adabiyoti, madaniyati» II Xalqaro ilmiy-amaliy konferensiyasi materiallari jamlangan. Maqolalarda turkiy tillarning rivoji va oʻzaro oʻxshashliklarini, umumiy adabiy merosimizni ilmiy asosda chuqur oʻrganish; madaniy aloqalarni zamonaviy texnologiyalar orqali kengaytirish; tarjima va adabiy almashinuv orqali xalqaro miqyosda muloqotni kuchaytirish; raqamli platformalar orqali integratsiyani amalga oshirishga oid fikrlar yoritib berilgan. Toʻplamdan dunyo boʻyicha taniqli turkiyshunos olimlar, metodistlar, oʻqituvchilar hamda ToshDOʻTAU iqtidorli talabalarining maqolalari ham oʻrin olgan.

Toʻplam til va adabiyot taʻlimi bilan shugʻullanuvchi professor-oʻqituvchilar, shu sohaning tadqiqotchilari, magistrant va talabalarga moʻljallangan.

**Taqrizchilar:**

**G.Asilova** – *pedagogika fanlari doktori (DSc), professor.*

**G.Norimova** – *filologiya fanlari nomzodi, dotsent.*

**Tahrir hay'ati:**

S.Muhamedova, S.Qambarova, O.Turaqulova,
Y.Shirinova, M.Yoʻldosheva.

*Mazkur toʻplam matni Alisher Navoiy nomidagi Toshkent davlat oʻzbek tili va adabiyoti universiteti Kengashining 2025-yil 2-iyundagi 10-sonli majlisida muhokama qilinib, nashrga tavsiya qilingan.*

*Izoh: Maqolalarning ilmiy saviyasi uchun mualliflar oʻzlari mas'uldirlar.*

ўрганиш ва идрок этишга интилиши билан ажралиб туради. Унинг асарларидаги асосий мавзулар - бу оддий инсоннинг ҳаётий ҳикояларидир.

Ёзувчи асарларини ўқиган ўқувчи адиб ижодидаги бу ҳаётий воқеликлар билан яқиндан танишади, қаҳрамонлар билан бирга яшайди.

**Фойдаланилган адабиётлар:**

1. Карим М. Собрание сочинений. В 3-х т. М.: "Художественная литература", 1983. 201.
2. Карим М. Сочинения: В 4-х т. /На баш. яз./. Уфа, Башкнигоиздат, 1987-1988.
3. https://ziyouz.uz/jahon-sheriyati/boshqird-sheriyati/mustay-karim.
4. Карим Мустай. АФВ. Танланган асарлар. Тошкент. Фан. 2025 360 б.
5. Сатторова Гулноз. ТУРКИЙ ХАЛЦЛАР АДАБИЁТИДАГИ УЗАРО МУШТАРАКЛИКЛАР./Oriental Renaissance: Innovative, educational, natural and social sciences. SJIF 2024 = 7.404 / ASI Factor = 1.7

**DOI:** 10.52773/tsuull.conf.2025/ KGIB8978

## RƏŞAD NURİ GÜNTƏKİNİN "ÇALIKUŞU" ƏSƏRİNİN TƏHLİLİ

**Nərmin Rəhimova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti, Türkoloji Mərkəzin mütəxəssisi*
*narminrahimova7@gmail.com*
*ORCID: 0009-0008-6350-6144*

**Annotasiya**

Müasir türk realist dövrünün görkəmli nümayəndələrindən Rəşad Nuri Güntəkin 1889-cu ildə İstanbulda hərbi həkim ailəsində anadan olmuşdur. Reşad Nuri Güntəkin karyerasına müəllimliklə başlamış və ədəbiyyata olan dərin marağı sayəsində özünü bu sahədə inkişaf etdirərək bir çox roman, hekayə və pyeslər yazmışdır. O, əsərlərində Anadolu xalqının həyatından, sosial problemlərdən bəhs edərək insan-mühit əlaqəsini vurğulamışdır. Reşad Nuri Güntəkinin "Çalıkuşu" romanı Türk ədəbiyyatının ən sevilən klassik əsərlərindən biridir. Roman İstanbulda kök salmış bir ailənin qızı Fəridənin nişanlısı tərəfindən xəyanətə uğradıqdan sonra özünü müəllimlik peşəsinə həsr etməsi və Anadoluda şəhər-şəhər səyahət etməsindən bəhs edir. Romanda sevgi, qısqanclıq, qadın hüquqları və bürokratiyanın tənqidi kimi bir çox mövzuya toxunulmuşdur. Fəridənin macərasının arxa planında Osmanlı İmperatorluğunun son illərinin təsviri öz əksini tapmışdır. Əsər emosional hadisəni təsvir etməklə yanaşı, dövrün sosial problemlərini də tənqidi şəkildə ortaya qoyur. Rəşad Nuri "Çalıkuşu" əsərində yaşadığı dövrün təhsil problemlərini ədəbi yolla dilə gətirmişdir. Təhsilə olan bu həssaslığı bilavasitə onun özünün də müəllim olmasından qaynaqlanır. Belə ki, sevgidən üzü gülməyən Fəridə obrazı müəllimliyə yönələrək öz həyat yolunu yenidən istiqamətləndirmişdir. Buna görə də, əsərin gedişatında oxucuların diqqətini daha çox təhsil mövzuları çəkir. Onlar bir nöqtədən sonra Fəridə və Kamuran arasındakı məhəbbətlə yanaşı, Anadolunun vəziyyəti və müəllimlərin məsələlərinə maraq duymağa başlayırlar. "Çalıkuşu" əsərinin bu qədər diqqət çəkməsinin səbəbi romanda bəhs edilən problemlərin günümüzdə də öz aktuallığını qoruması və Türk təhsil sistemində hələ də davam edən, həll yolu tapılmayan məsələlərin burada işıq üzü görməsidir.

**Açar sözlər:** Rəşad Nuri Güntəkin, “Çalıkuşu” romanı, Türk ədəbiyyatı, sevgi, təhsil, müəllim.

**Abstract**

Reshad Nuri Guntekin, one of the famous figures of the modern Turkish realist era, was born in 1889 in Istanbul to a military doctor's family. Reshad Nuri Guntekin, who began his career and developed his deep interest in literature, wrote many novels, stories and plays. In his works, he noted the human-environment relationship that speaks of the life of the Anatolian people and social problems. Reshad Nuri Guntekin's novel “Çalıkuşu” is one of the most beloved classic works of Turkish literature. The novel tells the story of Farida, the daughter of a family rooted in Istanbul, who, after being betrayed by her fiancé, devotes herself to the teaching profession and does not travel from city to city in Anatolia. The novel touches on many topics such as love, jealousy, women's rights and the struggle of bureaucracy. The background of Farida's adventure is reflected in the description of the last years of the Ottoman Empire. In addition to describing an emotional event, the work also reveals the social problems of the period in a controlled manner. In his work “Çalıkuşu”, Reshad Nuri expressed the educational problems of the time they lived in a literary way. This knowledge of education stems directly from his being a teacher himself. Thus, the image of Farida, who was not happy with love, is redirected to her life path towards teaching. Therefore, according to the course of the work, the readers' attention is more attracted to educational topics. After a certain point, they begin to be interested in the situation of Anatolia and the problems of teachers, in addition to the harm caused by Farida and Kamuran. The reason why the work “Çalıkuşu” attracts so much attention is that the problems that continue in the novel maintain their relevance today and the issues that are still developing in the Turkish education system and for which no solution has been found are brought to light here.

**Keywords:** Reshad Nuri Guntekin, the novel “Çalıkuşu”, Turkish literature, love, education, teacher.

**Xulosa**

Zamonaviy turk realistik davrining ko‘zga ko‘ringan namoyandalaridan biri Rashad Nuri Guntekin 1889 yilda Istanbulda harbiy shifokor oilasida tug‘ilgan. Reshad Nuri Guntekin o‘z ijodini o‘qituvchilikdan boshlagan va adabiyotga bo‘lgan chuqur qiziqishi tufayli o‘zini shu sohada rivojlantirib, ko‘plab roman, hikoya, dramatik asarlar yozgan. U o‘z asarlarida Anado‘li xalqining hayoti va ijtimoiy muammolariga to‘xtalib, inson-atrof-muhit munosabatlariga urg‘u bergan. Reshad Nuri Gyuntekinning “Chaligushu” romani turk adabiyotining eng sevimli mumtoz asarlaridan biridir. Romanda ildizi Istanbulda bo‘lgan bir oilaning qizi Farida ismli turmush o‘rtog‘ining xiyonatidan so‘ng o‘zini o‘qituvchilik kasbiga bag‘ishlab, Onado‘lining shaharma-shahar sayohati haqida hikoya qiladi. Romanda sevgi, rashk, ayol huquqlari, byurokratiya tanqidi kabi ko‘plab mavzular yoritilgan. Farida sarguzashtining foni Usmonlilar saltanatining so‘nggi yillari tasvirida o‘z aksini topgan. Asarda hissiy hodisani tasvirlash bilan birga, davrning ijtimoiy muammolari ham tanqidiy ochib berilgan. Rashod Nuriy o‘zi yashab o‘tgan davrning ta’lim-tarbiya muammolarini “Chaligushu” asarida adabiy yo‘l bilan ifodalagan. Ta'limga bo‘lgan bunday sezgirlik bevosita uning o‘zi o‘qituvchi ekanligidan kelib chiqadi. Shu tariqa, mehr-muhabbatga to‘lib-toshgan Farida siymosi o‘qituvchilikka yuzlanib, hayot yo‘lini qaytadan yo‘naltirdi. Shu bois ish davom etar ekan, kitobxonlar diqqatini tarbiyaviy mavzularga qaratadi. Ular ma’lum bir vaqtdan so‘ng Faride va Kamuran o‘rtasidagi muhabbatdan tashqari Anado‘lidagi vaziyat va muallimlar masalalari bilan ham qiziqa boshlaydilar. “Chaligushu” ning bu qadar e’tiborni tortganiga sabab, romanda muhokama qilingan muammolar bugungi kunda ham dolzarbligicha qolishi, Turkiya ta’lim tizimida haligacha hal etilmagan masalalarga oydinlik kiritilishidir.

**Kalit so‘zlar:** Rashad Nuri Guntekin, “Chaligushu” romani, turk adabiyoti, sevgi, tarbiya, ustoz.

**Giriş**

Müasir türk realist dövrünün görkəmli nümayəndələrindən Rəşad Nuri Güntəkin 1889-cu ildə İstanbulda hərbi həkim ailəsində anadan olmuşdur. Reşad Nuri Güntəkin karyerasına müəllimlikə başlamış və ədəbiyyata olan dərin marağı sayəsində özünü bu sahədə inkişaf etdirərək bir çox roman, hekayə və pyeslər yazmışdır. O, əsərlərində Anadolu xalqının həyatından, sosial problemlərdən bəhs edərək insan-mühit əlaqəsini vurğulamışdır. Bundan əlavə, Milli Təhsil Nazirliyində Müfəttiş olaraq Anadoluda gəzmiş və bu təcrübələrini əsərlərində əks etdirmişdir. 1956-cı ildə Londonda vəfat etmiş və İstanbuldakı Karacaahmet qəbiristanlığında dəfn edilmişdir.

Reşad Nuri Güntəkin bədii yaradıcılığa hekayə ilə başlamışdır və onun ilk qələm təcrübəsi "Köhnə dost" adlı hekayəsidir. Yazıçının hekayələri bir çox mövzuları özündə ehtiva etmişdir. Rəşad Nurinin hekayələrində cəmiyyətin acı reallıqları əksini tapmış, o, problemlərin ictimai-siyasi həllinə bədii dillə çıxış yolu axtarmışdır. Yazıçı yaşadığı dövrün çatışmazlıqlarını tənqid etdiyi və onlara qarşı etirazını dilə gətirdiyi bir sıra hekayələr kitabının da müəllifidir. Bu kitablara "Tanrı müsafiri' (1927), "Sönmüş ulduzlar" (1928), "Leyli və Məcnun" (1928), "Fövqəladə işlər" (1930) aiddir.

Rəşad Nuri yaradıcılığında dram əsərləri də xüsusi yer tutur və bu əsərlərin əsas mövzusunu müasirlik, reallıq kimi mövzular təşkil edir. Yazıçı dramaturgiyaya ilk addımını 1920-ci ildə "Xəncər" pyesi ilə atmışdır. Güntəkinin ən məşhur dram əsərləri arasında "Çalıquşu" (1922), "Dodaqdan qəlbə" (1924), "Yaşıl gecə" (1928) və "Yarpaq tökümü" (1943) və s. var.

Reşad Nuri Güntəkinin "Çalıquşu" romanı Türk ədəbiyyatının ən sevilən klassik əsərlərindən biridir. Roman İstanbulda kök salmış bir ailənin qızı Fəridənin nişanlısı tərəfindən xəyanətə uğradıqdan sonra özünü müəllimlik peşəsinə həsr etməsi və Anadoluda şəhər-şəhər səyahət etməsindən bəhs edir. Romanda sevgi, qısqanclıq, qadın hüquqları və bürokratiyanın tənqidi kimi bir çox mövzuya toxunulmuşdur. Fəridənin macərasının arxa planında Osmanlı İmperatorluğunun son illərinin təsviri öz əksini tapmışdır. Əsər emosional hadisəni təsvir etməklə yanaşı, dövrün sosial problemlərini də tənqidi şəkildə ortaya qoyur. Rəşad Nuri "Çalıquşu" əsərində yaşadığı dövrün təhsil problemlərini ədəbi yolla dilə gətirmişdir. Təhsilə olan bu həssaslığı bilavasitə onun özünün də müəllim olmasından qaynaqlanır.

"Çalıquşu" əsəri 1922-ci ildə "Vaxt" qəzetində çap olunaraq böyük diqqət çəkmişdir. Fəridənin hekayəsi həm türk cəmiyyətinin qurtuluş mübarizəsinin simvolu, həm də türk ədəbiyyatının Anadoluya keçidini simvolizə edən bir roman kimi qəbul edilmişdir. Roman tarixi sənədi əvəz etmir, lakin tarixə işıq salır, o yolu gedənlərə kömək edir. Yazıldığı dövrün problemlərini anlamağa kömək edir. Üstəlik romanda dövrün mühüm hadisələri tənqidi prizmadan ədəbi dil və üslubda təsvir edilmişdir. Əsərdəki bir sıra məsələlər günümüzdə də öz aktuallığını daşımaqdadır. Cümhuriyyət dövrünün aparıcı problemlərindən biri də bir çox dövrlər kimi bu ,şübhəsiz ki, təhsillə bağlıdır. Həmin dövrün təhsil problemlərini günümüzə çatdıran yazılı mənbələrdən biri o dövrdə qələmə

alınmış romanlardır. Reşad Nuri Güntəkinin "Çalıquşu" romanı bu baxımdan xüsusi əhəmiyyətə malikdir.

Fəridə fransız məktəbində oxuyan nadinc bir qızdır. Eyni zamanda o, çox gözəl və hörmətli bir ailənin qızıdır.Əsərin sonrakı hissələrində romanın ikinci ən mühüm qəhrəmanı Kamuran peyda olub Fəridənin ürəyini oğurlayır. Ancaq şəxsi xüsusiyyətlər baxımından bu iki sevgili bir-birinin tam əksidir. Fəridə dəcəl, üsyankar və cəsurdur. Kamuran isə utancaq, itaətkar cəsarətsizdir. O, itaətkar və cəsarətlidir. Fəridə fransız orta məktəbini bitirib müəllimlik diplomunu aldığı müddətdə Kamuranı çox sevməsinə baxmayaraq ürəyində ona qarşı şübhələr yaranır və xəyanətə uğradığı qənaətinə gəlir.. Bu bəlalardan qaçmaq üçün müəllimlik üçün müraciət edir və İstanbuldan başqa bir şəhərə işləməyə getməyə qərar verir. Onun məqsədi Kamurandan uzaqlaşmaq idi. Beləliklə, bu məqsədinə nail olur və onun təyinatı Zeynilər kəndinə verilir. Bu yer həm fiziki şərait, həm də mentalitet baxımından təhsil problemləri ilə doludur. Amma Fəridə çox bəlalarla üzləşəcəyini bilə-bilə inadında israr edir və müəllimlik fəaliyyətinə başlayır. Lakin sonradan bu təkidindən vaz keçərək Kamurana qovuşur. Bütün bunlar Fəridənin gündəliyində bizə öz əksini tapıb. Bu çərçivədə romanda yarım əsr əvvəlki dövrün təhsil həyatı panoramik şəkildə təqdim olunur. Buradakı tapıntıların doğruluğunda Rəşad Nurinin müəllim olmasının böyük rolu var idi.

"Çalıquşu" romanının baş qəhrəmanı Fəridənin simasında idealist bir müəllimin yaşadıqları izah edilsə də, əslində başlanğıcda o, belə deyildi. O, tamamilə fərdi və psixoloji səbəblə Anadoluya getmiş və romanın bir hissəsində Rəşad Nuri Fəridənin niyə müəllimliyi seçdiyini aydın şəkildə vurğulamışdır. Müəllif əsərdə Fəridənin Kamurana olan nifrəti sayəsində öz kəndini tərk etməklə yetinməyib ümumiyyətlə onun yaşadığı, nəfəs aldığı dünyadan qaçmaq istəyini bədii dillə ifadə etmişdir. O, Çalıquşunun Zeynilər kəndinə, oradan Çanaqqalaya, oradan da İzmirə və başqa yerlərə getməsini sanki əzab çəkərək olğunlaşan bir aşiqin mistik hekayəsinə oxşadır. Amma bir nöqtədə dayanır və fikirləşir ki, Fəridənin bütün bu sıxıntılara niyə dözdüyünü açıq şəkildə bildirir:

Niyə bu son ayrılıq saatında həqiqəti gizlətmək lazımdır? Bu oxumayacağın dəftəri mən sənin üçün yazdım, Kamuran Bəli, nə demişəmsə, nə yazmışamsa, həmişə sənin üçün idi. Səhv, çox səhv iş gördüyümü bu gün etiraf edəcəyəm. (1, s. 383).

Əslində roman boyu baş verən təsadüflər və sürprizlər bizə Fəridənin məqsədini aşkara çıxarır. Çünki Rəşad Nuri bəyin romanında hər hadisə bir sürprizdir, yəni damdan düşmüş kimi baş verir. Heç bir hadisə məntiqi ardıcıllığa tabe deyil.

Fəridənin Kamurandan qaçması, Maarifdə müəllim təyin olunması, Bursaya gəlişi və yerinin başqası tərəfindən tutulduğunu bilməsi, Zeynilərə getməsi, oradan Bursaya qayıtması və xüsusilə də onun taleyində həlledici dönüş nöqtəsi olan Darü'l Muallimat'a Fransızca müəllimi təyin olunması bütün bunlar hər biri təsadüflərdir. Yuxarıda deyilənlərdən də anlaşıldığı kimi, Fəridə bir qaçışın və

bu qaçışdakı peşmançılığın simvolu kimidir. Müəllif sətirlər arasında gizlədir ki, son peşmançılıq fayda etməz.

-Səncə mən də getdiyimə görə peşman deyiləm?

Kamuran onun üzünü görə bilmirdi, yalnız çənəsini, dodaqlarını sığallayan sevgi dolu barmaqlarına axan isti göz yaşlarını hiss edirdi. (4).

Müəllif hər dəfə Fəridəni danışdırmaqla əsl məqsədini ortaya qoyur və onun əsas məqsədlərindən biri də Kamuranla ürəyi yanmış Fəridəni bir araya gətirərək romanı xoşbəxt sonluqla bitirməkdir. Əsərdən nümunəyə nəzər yetirək:

Fəridə dedi: Mən nə acınacaqlı hisslərlə ailə evindən qaçdığımı, həyatım necə dərdlərlə dolduğunu, hansı məcburiyyətlə ailə qurduğumu izah etmək çox çətindir. (1, s. 416).

Fəridənin müəllim olmaqda inadkarlığı təkcə İstanbuldan kənarda yaşanan problemli həyata dözməkdə özünü göstərmir. O, həmçinin, özündən yaşca böyük, sevmədiyi İhsan bəylə evlənmək qərarına gəlir. -İhsan bəy, sizinlə evlənməyi xahiş edirəm. Məni məni qəbul edin, görəcəksiniz sizi necə xoşbəxt edəcəyəm... (1, s. 348)

Sevgi romanı kimi oxunan bu əsər, özündə həm də Cümhuriyyətin ilk illərindəki təhsil və təlim problemləri, Anadolunun yoxsulluğu, baxımsızlığı və geriliyi, insanların mentalitet problemləri və insanların peşə həyatındakı çətinlikləri də ehtiva edir.

"Çalıquşu" əsəri bizə inadkar bir sevgilinin başına gələnləri danışarkən, digər tərəfdən idealist gənc müəllim şəxsiyyətində Türkiyənin, o dövrün təhsil problemlərini əks etdirir.

Fəridə romanın əvvəlində oxuduğu ibtidai məktəbin fiziki şəraitini uşaq nöqteyi-nəzərindən izah edərkən, dolayısı ilə məktəblərin fiziki quruluşunun uşaqlar tərəfindən sevimli bir evdən çox, qorxunc bir məkan kimi qəbul edildiyini nəzərə çatdırır. Bir tərəfimdə böyük bir taxta dirək var idi Sakit, ləyaqətli, hündürboylu, nə edilsə də aldatmaq mümkün olmayan, bıçağımın ucu ilə arabir açdığım yaralara ləyaqətlə dözən qonşu. Digər tərəfimdə isə, qapaqları heç açılmayan və monastır tərbiyəsinin tələb etdiyi sərin və qürurlu qaranlığı təmin etmək üçün tikilmiş uzun bir pəncərə var idi (4).

Rəşad Nuri Güntəkinin "Çalıquşu əsəri"ində bəhs edilən təhsil problemləri günümüzdə də öz aktuallığını qorumaqdadır. Əsərdə məktəblərin fiziki çatışmazlığı, təhsildə intizam üsulları və cəza formaları, müəllimlərin gözləntiləri və problemləri, təhsildə intriqalar və s. kimi məsələlərə toxunulmuşdur.

Fəridənin ibtidai sinif xatirələrini təşkil edən bu mənfi xatirələr sonradan müəllim olanda da onun qarşısına çıxdı. Həyəcanla dərs deməyə kəndə gələn Fəridə Zeynilər kəndini görəndə ilk şokunu yaşadı. Belə ki, o kəndi xəyalında bu cür canlandırmamışdı və bu onun tam emosional dağıntı yaşamasına səbəb oldu. Lakin, bir müddət sonra vəziyyəti qəbullandı. Kənddə qalacağı evə çatdıqda isə Fəridə bir daha təəccüb və təəssüf hissi keçirdi.

Köhnəlikdən divar kağızı deşik-deşik olmuş, tavan qaralmış, soba sınmış və çarpayı pis vəziyyətdə idi. Havasız bir zirzəmiyə düşmüş kimi ürəyim sıxılır, əllərim, ayaqlarım üşüyürdü. Deməli, bundan sonra mənim həyatım bu otaqda keçəcək! (1, s174).

Fəridəni üçüncü dəfə təəccübləndirən isə müəllim olaraq təyin edildiyi məktəb oldu. Məktəbin yeni təmir edildiyi söylənsə də, buna təmir demək mümkün deyildi. Şərait çox pis vəziyyətdə olduğu üçün müəllif məktəbi təsvir edərkən onu ahıra bənzətmişdir. Bütövlükdə bütün bu kənddəki şəraitsizlik istər-istəməz Fəridənin müəllimliyə həyəcanının azalmasına səbəb olmuşdur.

Rəşad Güntəkinin fikrincə, illər ərzində təhsil sistemində heç bir köklü dəyişikliklər edilməmiş, kənd məktəblərinin şəraiti yaxşılaşdırılmamışdır. Sadəcə olaraq zamanla insanlar bu vəziyyəti qəbullanmış və öyrəşmişlər.

Rəşad Nuri Güntəkin “Çalıquşu” əsərində təhsil sistemindəki tərbiyə metodu və cəzalandırma üsullarından da bəhs etməyi unutmamışdır. O dövrdə insanlar elə düşünürdü ki, cəza verməklə istənməyən davranış aradan qaldırılır. Ancaq bunun əksinə, cəza fərdləri təzyiq altında saxlamaqdan başqa bir işə yaramırdı. Müəllif müəllimlərin cəzalandırma üsulları haqqında danışarkən müəllimin tənbəl və günahkar şagirdi namusuna toxunmayacaq sözlərlə acılamağını , ayaq üstə saxlamasını, qulağını çox incitməyəcək qədər çəkməsini, çubuqla yüngül şəkildə döyməsini və s. nümunə gətirmiş və bunları açıqca qınamışdır. Onun fikrincə, bu cür cəza şəkilləri tərbiyədə heç də effektiv deyildi. Məsələn, romanın bir hissəsində Fəridənin baxış bucağından o dövrün müəllimlərini belə ifadə etmişdir:

“Heç yadımdan çıxmaz. Dəcəlliyim və çox danışmağımdan bezən müəllimlər məni dostlarımdan ayırıb bir partada tək otuzdurardılar.” (2, s.7).

Müəllimlər üçün adi hal kimi görünsə də, bu cəza bir uşağın illərlə yadında qalmış və pis təsir etmişdir. Rəşad Nuri Gültekin şagirdləri zorakı yolla deyil, həvəsləndirməklə təhsilə cəlb etmək lazım olduğunun önəmini qeyd etmişdir.

Yazar müəllim problemləri və gözləntiləri kontekstidnə idealları və reallıqları qarşılaşdırmış və ikisi arasındakı fərqi oxucusuna çatdırmışdır. Fəridə beynində yaratdığı ideal müəllim obrazı ilə müəllimliyə başlamışdır. Lakin əsərin gedişatında müəllimin də insan olmasından və ideal insanın mövcudluğunun imkansızlığından bəhs edilmişdir. Məsələn, insanlarda bu cür düşüncə var idi ki, müəllim əvvəlki gün nə qədər yorulmuş olarsa olsun, səhər tezdən oyanmalı və işinin başında olmalıdır. Fəridə bütün bu düşüncələrə, cəmiyyətin müəəlimlərdən gözləntilərinə önəm verirdi. Buna görədir ki, yazıçı Fəridənin timsalında müəllimlərin vəzifə məsuliyyətinin fərqində olmasını və öhdəliklərini yerinə yetirməsini romanda bədii şəkildə əks etdirmişdir.

Rəşad Nuri Güntəkin “Çalıquşu” romanında təhsildə tanışlıq əlaqələrindən sui-istifadə hallarına da diqqət çəkmişdir. Vasitəçi olmadan işdə nəticə əldə etmənin və uğur qazanmanın çətinliyini vurğlamış və bu hallara etirazını bildirmişdir.

Türk ədəbiyyatının dövrləri arasında sərhəd daşı rolunu oynayan “Çalıquşu” romanı bir baxımdan Anadoludakı səfalətli vəziyyəti təcəssüm etdirir,

digər tərəfdən isə zahirən sevgi, əslində isə bir inad uğruna dözülən bir çox sıxıntılardan bəhs edir. Başlanğıcda sevgi romanı təəssüratı bağışlasa da, burada bir çox mövzulara toxunulmuşdur. Belə ki, sevgidən üzü gülməyən Fəridə obrazı müəllimliyə yönələrək öz həyat yolunu yenidən istiqamətləndirmişdir. Buna görə də, əsərin gedişatında oxucuların diqqətini daha çox təhsil mövzuları çəkir. Onlar bir nöqtədən sonra Fəridə və Kamuran arasındakı məhəbbətdən əlavə Anadolunun və müəllimlərin məsələlərinə maraq duymağa başlayırlar. “Çalıquşu” əsərinin bu qədər diqqət çəkməsinin səbəbi romanda bəhs edilən problemlərin günümüzdə də öz aktuallığını qoruması və Türk təhsil sistemində hələ də davam edən, həll yolu tapılmayan məsələlərin burada işıq üzü tapmasıdır. Rəşad Nuri Güntəkin Fəridənin vasitəsilə tənqidi və realist cəhətdən Türk təhsil sistemindəki başlıca problemləri dilə gətirmişdir.

**Ədəbiyyat**

**1.** Güntekin, Reşat Nuri (2005), Çalıkuşu, İnkılap Kitabevi, İstanbul.
**2.** Akyüz, Yahya (2005), Türk Eğitim Tarihi, PegemA Yayıncılık, Ankara.
**3.** Emil, Birol (1984), Reşat Nuri Güntekin’in Romanlarında Şahıslar Dünyası, İ.Ü.E.F. Yayınları, İstanbul.
**4.** **https://islamansiklopedisi.org.tr/guntekin-resat-nuri**

**DOI:** 10.52773/tsuull.conf.2025/ CIVC2541

## ЭТНОКУЛЬТУРНЫЕ ФАКТОРЫ ЛИНГВИСТИЧЕСКОГО ЛАНДШАФТА НА МАТЕРИАЛЕ ЗАУРАЛЬСКИХ РАЙОНОВ БАШКОРТОСТАНА

**Юсупов Ильшат Фаритович**
*Научный сотрудник Института стратегических исследований ГБНУ «Академии наук Республики Башкортостан», кандидат социологических наук*
*Ilshat_iosopov@mail.ru*

**Аннотация.** В статье анализируются результаты социологического исследования по проблемам этноязыковой ситуации в районах Зауралья Республики Башкортостан. Полученные в опросе данные свидетельствует о том, что язык в Республике Башкортостан является важнейшим этнообразующим фактором. В статье подчеркивается, что родной язык для человека определяется его этнической принадлежностью. При этом степень владения языком, а также сфера его применения языка не могут служить критериями определения родного языка. Полученные результаты подтвердили, что семья в современном обществе остается важнейшим институтом сохранения и трансляции родного языка.

***Ключевые слова:*** этноязыковая ситуация, родной язык, башкирский язык, русский язык.

**Annotatsiya.** Izoh. Maqolada Boshqirdiston Respublikasining Trans-Ural mintaqalaridagi etnolingvistik vaziyat muammolari bo‘yicha sotsiologik tadqiqot natijalari tahlil qilingan. So‘rovda olingan ma'lumotlar Boshqirdiston Respublikasida til etnik shakllantiruvchi eng muhim omil ekanligini ko‘rsatadi. Maqolada insonning ona tili uning

| V SHU'BA. MADANIY HAMKORLIKNING TA'LIM TIZIMIDAGI O'RNI: TIL VA ADABIYOT | |
|---|---|
| ***Бердин Азат Тагирович.*** *ОБЩЕЕ И ОСОБЕННОЕ В ГЕНЕЗИСЕ УММЫ В ТЮРКСКИХ РЕСПУБЛИКАХ РОССИИ: ОПЫТ ИНТЕРПРЕТАЦИИ ИСТОРИЧЕСКИХ СМЫСЛОВ* | 375 |
| ***Gahramanov Sabuhi Adil oglu.*** *THE AIM OF AZERBAIJANISM AND DISSIDENTISM IN KHALIL RZA ULUTURK'S ARTISTIC CREATIVITY* | 388 |
| ***Гайфуллина Миляуша Фаниловна, Абдуллина Лилия Бакировна.*** *ПОЭТИКА ДОМА В РАННЕЙ ПРОЗЕ Л.Н. ТОЛСТОГО (НА МАТЕРИАЛЕ АВТОБИОГРАФИЧЕСКОЙ ТРИЛОГИИ «ДЕТСТВО», «ОТРОЧЕСТВО», «ЮНОСТЬ»)* | 396 |
| ***Gözde GÜNGÖR.*** *ABDULLA KAHHAR'IN MAHALLE ADLI HİKÂYESİNDE İDEOLOJİK ÖZNELEŞME SÜRECİ* | 405 |
| ***Həsənova Könül Nəriman qızı.*** *POEZİYANIN ÇOXNÖQTƏ İLƏ İŞARƏLƏN LEKSİK VAHİDLƏRİNDƏ FORMAL QƏNAƏTİN ANLAMA MODELLƏRİ* | 412 |
| ***Ishonxanova Iroda Abduvaxitovna.*** *ALEKSANDR BOROVKOV – ALISHER NAVOIY TADQIQOTCHISI SIFATIDA* | 419 |
| ***Ebru KABAKÇI.*** *TÜRKİYE'DE EĞİTİM ALANINDA YAZILAN LİSANSÜSTÜ TEZLERDE BAĞIMSIZ TÜRK CUMHURİYETLERİNE YÖNELİK İLGİNİN SEYRİ (2000–2025): AKADEMİK PERSPEKTİFTEN KÜLTÜREL BÜTÜNLEŞMEYE BİR BAKIŞ* | 427 |
| ***Кожоева Гулжамал Жайлообаевна.*** *ХИАЗМДУУ КАЙТАЛООЛОРДУН ӨЗГӨЧӨЛҮКТӨРҮ* | 439 |
| ***Musayev Dəyanət Musa oğlu.*** *BİRİNCİ TÜRKOLOJİ QURULTAY VƏ TARİXİ MİSSİYASI* | 446 |
| ***Mirzəzadə Rəqsanə.*** *BIRINCI TÜRKOLOJI QURULTAYDA İŞTIRAK EDƏN ÖZBƏK NÜMAYƏNDƏLƏRI* | 456 |
| ***Гулноз Сатторова.*** *МУСТАЙ КАРИМ: ШАХС ВА ИЖОД УЙҒУНЛИГИ* | 461 |
| ***Nərmin Rəhimova.*** *RƏŞAD NURİ GÜNTƏKİNİN "ÇALIKUŞU" ƏSƏRİNİN TƏHLİLİ* | 465 |
| ***Юсупов Ильшат Фаритович.*** *ЭТНОКУЛЬТУРНЫЕ ФАКТОРЫ ЛИНГВИСТИЧЕСКОГО ЛАНДШАФТА НА МАТЕРИАЛЕ ЗАУРАЛЬСКИХ РАЙОНОВ БАШКОРТОСТАНА* | 471 |
| ***Р.А. БАЗАРБАЕВА.*** *КӨРКЕМ МӘТІНДІ ТАЛДАУ АРҚЫЛЫ ОҚУШЫЛАРДЫҢ КРЕАТИВТІ КОМПЕТЕНЦИЯСЫН ДАМЫТУ* | 478 |
| ***Inogamova Nargiza Shavkatovna.*** *LINGVOKULTUREMALARNING TIL VA ADABIYOT TA'LIMI JARAYONIDAGI ROLI XUSUSIDA* | 482 |
| ***Panjiyeva Zilola.*** *TILNING PARAMEOLOGIK FONDI* | 489 |
| ***Musayeva Sarvinoz.*** *YOZMA NUTQDA IMLOVIY XATOLAR: SABAB VA OQIBATLARI* | 490 |
| ***Лиана Саттарова, Фания Сулейманова.*** *ПРОБЛЕМА «НЕВЫРАЗИМОГО» В ДНЕВНИКАХ 50-Х ГГ.* | 493 |